Azərbaycan Respublikası Vəkillər Kollegiyası

sədri cənab Anar Bağırova

Gülməmmədov Bəxtiyar  Sərdar oğlu tərəfindən

**TƏŞƏKKÜR MƏKTUBU**

Hörmətli sədr Anar Bağırov, bu məktubu sizə göndərərək təşəkkürlərimi bildirmək istəyirəm. Azərbaycan Vəkilliyi günbəgün inkişaf edir və vəkillərə inam daha da artır. Bu İnamın daha da artmasının əsas səbəblərindən biri də  peşəkar, savadlı vəkillərin olmasıdır. Vəkiliyin inkişafında  Vəkillər kollegiyasının sədri olaraq sizin də  əməyiniz çoxdur. Sizin  rəhbərliyiniz ilə Kollegiyada aparılan islahatlar vəkilliyin inkişafına vəsilə olur.

Ölkəmizdə müdafiə institutunun inkişafının göstəricisindən biri də son illərdə məhkəmələr tərəfindən cinayət işləri üzrə verilmiş bəraət hökm və qərarların statistikasıdır. Bu statistika son illər ərzində yüksələn xətlə artmaqdadır və şüphəsiz ki, bu tip qərarların artmasında vəkillərin xüsusi rolu vardır.

Təşəkkürümün bir digər və əsas  səbəbi  Vəkil Emin İsayevə və  Vəkil Vüqar İsmayılova göstərdikləri peşəkar xidmətlərə görədir. Qeyd etmək istəyirəm ki, hüquqi yardım üçün müraciət etdikdən sonra Sabunçu Rayon Polis İdarəsinin istintaqında barəmdə aparılan cinayət təqibində, cinayət işi üzrə proses zamanı hüquq və qanuni maraqlarımın keyfiyyətli, yüksək səviyyədə müdafiə edərək mənə keyfiyyətli hüquqi yardım göstərməklə müdafiəmi  təşkil etdiklərinə, hüquqi məsələlərdə yardımçı olduqlarına və vəzifələrini layiqli, peşəkar yerinə yetirdikləri üçün təşəkkür edirəm.

**Hörmətli  Anar Bağırov**

Yazıb sizdən xahiş edirəm, mənim adımdan Ekol Vəkil Bürosunun Vəkilləri Emin İsayevə və  Vüqar İsmayılova göstərdikləri peşəkar xidmətlərə görə  Təşəkkürlərimi bildirin.

Hörmətlə,

Gülməmmədov Bəxtiyar  Sərdar oğlu

Bakı şəhəri

Tarix: 07.12.2024

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 4709
«09» 12 2024